**19 oktyabr 2015-ci il tarixində "Ümumdünya statistika günü" və Azərbaycanda rəsmi statistikasının 95 ili münasibətilə Səbail Rayon Statistika Şöbəsində tədbir keçirilmişdir.**



Tədbiri Səbail Rayon Statistika Şöbəsinin rəisi Şahin Seyidov giriş nitqi ilə açmış və çıxışında bildirmişdir ki, bu günkü tədbirin keçirilməsində məqsəd "Ümumdünya statistika günü" nün qeyd olunmasıdır. Bu günlərdə dünyanın 100-dən çox ölkəsində "Ümumidünya Statistika günü" təntənəli şəkildə qeyd olunur. BMT-nin Baş Assambleyasının 64/267 saylı qətnaməsi ilə 20 oktyabr "Ümumidünya Statistika günü" geyd olunması qərara alınmışdır. Müasir statistikanın tarixi 19-cu əsrin əvvəllərinə təsadüf edir. Bir çox ədəbiyyatlarda, arxiv materiallarında hələ 19-cu əsrin əvvəllərində tarixcilərin Azərbaycan əhalisi, sənaye, kənd təsərrüfatı, ticarət və s. statistik məlumatlara istinad etdikləri öz əksini tapmışdır.

19-cu əsrin ortalarında Azərbaycanin Rusiya İmperiyasının tərkibində olduğu dövrlərdə Tiflisdə yerləşən qafqaz canişini nəzdində yerləşən statistika qrupu tərəfindən tədbirlər həyata keçirilirdi.



Azərbaycanda statistikanın təşkili Şamaxı, Bakı və Gəncə quberniyasının yaradılması ilə eyni vaxta təsadüf edir. İmperator I Nikolay tərəfindən 1834–cü il dekabrın 20-də imzalanmış fərmanın 27-ci maddəsində bütün quberniya şəhərlərində Statistika Komitələrinin yaradılması sözləri qeyd olunmuşdur.

XIX əsrin sonu XX əsrin əvvəli İmperiya Statistikası tarixində müxtəlif müayinələrin və siyahıyaalmaların təşkili və keçirilməsi ilə xarakterizə olunur. Həmin dövrdə 1897-ci ilin fevral ayında çar Rusiyasının bütün ərazisində Azərbaycan da daxil olmaqla birinci siyahiyaalma keçirilmişdir. Bu siyahıyaalmada əhalinin 3 katiqoriyası uçota alınmışdır - mövcud, daimi və qeyddə olan. Bundan sonra 1903-1910-cu illərdə kənd təsərrüfatı maşın və avadanlıqlarının siyahıyaalması, mal qara haqqında məlumatlar toplanmışdır.

1917-1920-ci illərdə Azərbaycanda ayrı-ayrı dövlət qurumlarında statistika şöbələri yaradılaraq fəaliyyət göstərmişdir. 1918-ci il aprel ayının 25-də Baki Xalq Komissarı Sovetinin tərkibində Bakı Xalq Təsərrüfatı Soveti yaradılmışdır ki onun tərkibindəki 9 şöbədən biri statistika şöbəsi olmüşdur.

Sonralar isə Azərbaycan Xalq Cümhuriyyətinin dövründə ayrı-ayrı Nazirliklərin tərkibində Statistika ilə məşğul olan qurumlar fəaliyyət göstərmişdir.

1920-ci ildə Nəriman Nərimanovun imzası ilə Azərbaycan İnqilab Komitəsi Tərəfindən Statistiklərin müvəqqəti kollegiyası haqqında əsasnamə təsdiq edilmişdir. O vaxtdan da Azərbaycanda statistikanın təməli qoyulmuş və hal hazırda Dövlət Statistika Komitəsi kimi fəaliyyət göstərir. 1994-cü il statistikanın tarixində xüsusi il olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənabları tərəfindən 18 fevral 1994-cü ildə “Statistika haqqında” Azərbaycan Respublikasının Qanunu imzalanmışdır. Müstəqillik dövründə Azərbaycanda rəsmi statistikanın təkmilləşdirilməsi məqsədilə Dövlət Statistika Komitəsi tərəfindən beşillik dövlət proqramları işlənib hazırlanmış və həyata keçirilmişdir. Hazırda 2013-2017-ci illəri əhatə edən Dövlət Proqramına uyğun olaraq, nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.




Statistika sahəsində aparılan islahatların nəticəsi olaraq bu gün statistıkanın “Elektron hökumət” portalına qosulması və hesabatların online real – vaxt rejimində ötürülməsi, elektron karguzarlıq sisteminin və bir cox müasir üsullarin tətbiqini göstərmək olar.

Statistika uçotunun köməyi ilə kütləvi-ictimai hadisələr öyrənilir və onlara nəzarət edilir. Statistika sosial-iqtisadi hadisələr haqqında məlumatları toplayır, onların ümumi xarakteristikasını verir, həmin hadisələrin inkişafındakı qanunauyğunluqları öyrənir. Statistika təkcə sosial-iqtisadi hadisələri deyil, həm də cəmiyyətdə baş verən sosial hadisələri - onun mədəniyyətinin, səhiyyəsinin inkişafını, əhali artımının dinamikasını, əhalinin maddi həyat səviyyəsini əks etdirir.

Bir sözlə “Statistika iqtisadiyyatın güzgüsüdür” desək yanılmarıq.

Rəsmi statistikanın əsas prinsipləri özündə iqtisadi, demoqrafik, sosial və ekoloji vəziyyət haqqında məlumatların düzgün toplanması, işlənmisi və idarəetmə orqanlarına, iqtisadi subyektlərə və ictimaiyyətə təqdim etməkdən

ibarətdir. Dövlət Statistika Komitəsi də bu prinsiplərə uyğun olaraq özünün əsas missiyasını ölkədə davamlı inkişafın və sosial-iqtisadi vəziyyətə dair idarəetmə orqanlarının, elmi-tədqiqat sahəsində işçilərin, digər istifadəşilərin və cəmiyyətin statistik göstəricilərə olan tələbatının ödənilməsini təmin edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə statistiklərinin yaddaşına həkk olunmuş "**Bizim Dövlət Statistika Komitəsi var, çox düzgün statistika aparır"** məşhur kəlamı Dövlət Statistika Komitəsinə verilən qiymətin bariz nümunəsidir.

Səbail Rayon Statistika Şöbəsinin əməkdaşları adından Dövlət Statistika Komitəsinin yaranmasının 95 illiyi münasibəti ilə bütün məsləkdaşlarını təbrik edir, şəxsi həyatlarında və xidməti fəaliyyətlərində uğurlar arzulayırıq!